# GÖYƏRÇİN

12
2023
İSSN-0207-4710



RAFİQ YUSİFOĞLU

# QIŞ NƏNƏ VƏ ONUN OĞULLARI

Biri var idi, biri yox idi, bir Qış nənə var idi. Bu qış nənənin üç oğlu gəlmişdi dünyaya. Böyük oğluna Böyük Çillə, kiçik oğluna Kiçik Çillə, sonbeşiyinə isə Boz ay adı vermişdi insanlar.

Qış təbiətə rahatca gəlmək, soyuğu, şaxtanı, çovğunu sevməyən təbiətdən, canlılardan, insanlardan intiqam almaq, onlara daha çox sıxıntı vermək üçün məqam axtarır. Bunun üçün ən münasib vaxt isə ilin ən uzun gecəsidir. Bu gecəyə el arasında Şəbi-yelda da deyirlər, çillə gecəsi də... Qış ona görə payızı ilin ən uzun gecəsində hakimiyyət taxtından uzaqlaşdırıb yerinə keçmək istəyir ki, üfüqdə gec görünən, istiliyi nisbətən azalan Günəş ona mane ola bilməsin... Həmin gecə, yəni çillə gecəsi Qış nənə öz övladlarını da götürüb gəlir canlıların, insanların yanına...

Çillə məşəqqət, üzüntü, sıxıntı, çətinlik anlamına gələn sözdür. Çillənin sınağından çıxan canlılara zaval yoxdur... Hərə donmamaq üçün bir vasitə, yol axtarır... Ağaclar yarpaqlarını töküb, qış yuxusuna gedirlər. Otların, çiçəklərin kökü torpağın altında gizlənir... Canlılar öz yuvalarına, mağaralarına çəkilirlər. Bəziləri qış yuxusuna gedir... Quşların bəzisi isti ölkələrə köçür, bəziləri isə orda-burda daldalanır...

Soyuqla, qarla, çovğunla, çillələrin sınağı ilə üzləşən, yaşamaq uğrunda mübarizə aparan canlıların ən alisi insanlardır. Onlar mübarizə apara-apara dünyanın ən ali varlığına çevriliblər. İnsanlar əvvəlcə soyuqdan qorunmaq üçün mağaralara, kahalara sığınıblar, təbiətdən od almaqla ocaq qalamaq, soyuqdan qorunmaq yollarını öyrəniblər. Ehtiyac geyimlərin yaranmasına, evlərin tikilməsinə, elektrik enerjisinin, digər yanacaq növlərinin istehsalına səbəb olub...

Özlərinə ev tikən insanlar heyvanları üçün tövlə, quşları üçün hin düzəltmək qayğısına da qalıblar... Müasir insan üçün soyuğun, qarın, şaxtanın, çovğunun heç bir qorxusu yoxdur. Ancaq bu mübarizə hər il davam edir. Qış hər il canlıları sınağa çəkir, onlara əzab-əziyyət verməkdən zövq alır...

Qış qışlığını sübut eləmək üçün birinci öz böyük oğlu Böyük Çilləni döyüşə göndərir... Qırx gün, qırx gecə hakimiyyətdə olan Böyük Çillə çovğunu, qarı, sazağı başına toplayıb, gücü gəldikcə canlılara daha çox əzab verməyə çalışır. Qırx gündən sonra onu daha amansız, daha sərt Kiçik Çillə əvəz eləyir... "Kiçik Çillənin soyuğu, təndirə təpər toyuğu" ifadəsi də elə belə yaranmayıb... Fevral ayının ilk iki ongünlüyündə hakimiyyətdə olan Kiçik Çillə nə qədər amansız olsa da, ömrü uzun deyil... Səmi iyirmi gün, iyirmi gecə...

Sərtliklə, şaxta ilə bir şeyə nail olmayan Qış nənə bu dəfə insanların zəhləsini tökmək, onları bezdirmək qərarına gəlir. Ona görə də sonbeşiyi Boz aya meydan verir. Boz ay gələndə soyuq, çən, çisgin, duman canlıların hövsələsini daraldır... Boz ayın hakimiyyəti isə 30 gün davam eləyir... Martın iyirmi birində gecə ilə gündüzün bərabərləşdiyini, günlərin indən belə uzanacağını görən Qış nənə öz övladlarını da götürüb qaçır... Beləliklə də təbiətə yaz gəlir... Boz dünya yaşıl rəngə boyanır... Həyat yenə öz axarı ilə davam eləyir...

Qış da, onun övladları da hər il gəlir, hər il gedirlər... Bu, təbiətin qanunudur. Qış insanlara, canlılara əziyyət versə də, onun pisliyindən çox yaxşılığı keçir... Çünki Qış nənə təbiəti yaza hazırlayır...

